NÜSXƏ № 1

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**№ 139-8**

**Bakı şəhəri,** « 16 » iyul 2010 **il**

**"Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 31 may tarixli 1015-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 952 nömrəli Sərəncamının 2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 avqust tarixli 139-6 nömrəli qərarında (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-ci il 15 sentyabr tarixli 212-23 nömrəli qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və mətnində "xüsusi texniki vasitələrin" sözləri "texniki vasitələrin" sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş "Əməliyyat-axtarış fəaliyyəti prosesində gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrin növlərinin siyahısı"nın adında "xüsusi texniki vasitələrin" sözləri "texniki vasitələrin" sözləri ilə və 1-6-cı, 9-15-ci bəndlərində "xüsusi texniki vasitələr" sözləri "texniki vasitələr" sözləri ilə, 7-ci bəndində "xüsusi və digər texniki vasitələr" sözləri "texniki vasitələr" sözləri ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **A. Rasi-zadə**